

# POLİS


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

27 avqust 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 32 (3795)


# Əbədi dostluq və müttəfiqlik



## Azərbaycan və Özbəkistan strateji tərəfdaşlığın yeni mərhələsinə qədəm qoydular

Avqustun 23-də Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri iki qardaş ölkə arasında tarixi münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoydu. Səfər çərçivəsində dövlət başçıları tərəfindən imzalanmış “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə” sadəcə formal diplomatik sənəd deyil, iki dövlətin geosiyasi, iqtisadi və təhlükəsizlik baxımından bir-birinə sarsılmaz tellərlə bağlandığının bariz sübutudur.

Son illərdə Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında cərəyan edən sürətli geostrateji proseslər, xüsusilə Orta dəhlizin strateji əhəmiyyətinin artması və Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində inteqrasiya meyillərinin güclənməsi Bakı ilə Daşkənd arasında münasibətlərin dərinləşməsini zərurətə çevirib. Son 4-5 il ərzində dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivləşməsi, aparılan yüksəksəviyyəli danışıqlar və iqtisadi-ticari əlaqələrin dinamik artımı strateji tərəfdaşlıq modelinin artıq müttəfiqlik və əbədi dostluq səviyyəsinə yüksəlməsini təmin etdi. Bu baxımdan, imzalanan müqavilə iki ölkənin ortaq soy-kökə, dil və mədəniyyət yaxınlığına söykənən tarixi qardaşlıq bağlarını müasir beynəlxalq hüquq müstəvisində ən ali, dəyişməz və institutlaşmış formada təsbit edir.

Sənəddə göstərilir ki, iki dövlət beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərini və normalarını rəhbər tutaraq, münasibətlərində əbədi dostluğa, qarşılıqlı etimada, strateji tərəfdaşlığa və müttəfiqliyə əsaslanır, öz milli reallıqlarına uyğun inkişaf yollarının və modellərinin seçimində bir-birini dəstəkləyirlər. Onlar, həmçinin digər tərəfin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vuran hər hansı bloklarda və ya ittifaqlarda iştirak etməməyi, öz ərazilərinin üçüncü ölkələr tərəfindən digər tərəfin dövlət suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vurmaq məqsədilə istifadə edilməsinə, eləcə də öz ərazilərində digər tərəfin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə zərər vuran təşkilatların və qrupların yaradılmasına və fəaliyyətinə yol verməməyi öhdələrinə götürürlər. İki ölkə xalqlarının mənəvi, təhsil və mədəni yaxınlığının qorunub saxlanmasına hərtərəfli kömək göstərir, elm, təhsil, tibb, mədəniyyət, mədəni irs, gənclər, turizm və idman, habelə qarşılıqlı maraq doğuran digər istiqamətlərdə mübadilə və əməkdaşlığı inkişaf etdirirlər. Azərbaycan və özbək dillərinin qarşılıqlı tədrisinə, elmi və təhsil müəssisələri arasında birbaşa əməkdaşlığın inkişaf etdirilməsinə və birgə layihələrin həyata keçirilməsinə şərait yaradırlar. Göstərilənlər gələcək nəsillərin ortaq kimlik və dəyərlər ətrafında sıx birləşməsini hədəfləyir.

Daşkənddə keçirilən mərasimdə dövlət başçılarının bir-birini ali ordenlərlə - Prezident İlham Əliyevin “Dostluq”, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin isə “Heydər Əliyev” ordeni ilə təltif etməsi siyasi iradənin və şəxsi etimadın ən yüksək göstəricisidir. Daşkənddə təltifolunma mərasimində Prezident İlham Əliyev son 4-5 ildə həyata keçirilən intensiv səfər dinamikasına diqqət çəkərək, əldə olunan bu yüksək diplomatik səviyyənin əsrə söykənən ortaq köklər, mədəniyyət və dil yaxınlığı üzərində ucaldığını diqqətə çatdırdı.

Şavkat Mirziyoyev isə bəyanatında imzalanan müqavilənin sadəcə bir sənəd yox, qarşılıqlı əlaqələri dərinləşdirmək, əməkdaşlıq imkanlarını genişləndirmək kimi qiymətləndirdi.

# Rəqəmsal asayiş

## İnformasiya təhlükəsizliyi ictimai sabitliyi möhkəmləndirir

Müasir dünyada informasiyanın yayılma sürəti saniyələrlə ölçülür. Yalan xəbər olsa belə, bir anın içində minlərlə, hətta milyonlarla insana çatır və cəmi bir paylaşım ictimai rəyə təsir göstərir, narahatlıq yaradır, müəyyən proseslərə münasibəti dəyişir. Buna görə internetin və sosial şəbəkələrin verdiyi geniş imkanlar fonunda informasiya təhlükəsizliyi məsələsi dövlətlərin milli maraqları baxımından getdikcə daha böyük əhəmiyyət qazanır. Sosial şəbəkələr insanların informasiya əldə etdiyi, fikir bildirdiyi, müzakirələr apardığı böyük kommunikasiya məkanıdır. Ancaq bu imkanlardan qanunsuz məqsədlərlə istifadə hallarına da rast gəlinir.

*(Ardı 2-ci səhifədə)*

# Xəbərdarlıq etmədən gələn təhlükə

## Yol hərəkəti qaydalarının pozulması ağır nəticələrə səbəb olur

Sürücülərlə yanaşı, piyadaların da qaydalara əməl etməməsi qəzaların əsas səbəblərindəndir. Cari ilin ilk yeddi ayı ərzində ölkə ərazisində 633 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Hadisələr nəticəsində 848 nəfər zərərçəkib. Qeydə alınan yol-nəqliyyat hadisələrinin üçdə birinin həftəsonu günlərinə, 60 faizdən çoxunun isə sutkanın qaranlıq vaxtlarına təsadüf etməsi yol hərəkəti təhlükəsizliyinin təmin olunması istiqamətində profilaktik tədbirlərin əhəmiyyətini artırır.

*(Ardı 2-ci səhifədə)*

# Viza proseduru sadələşdirilir

## Ölkəyə gələn əcnəbilər hava limanlarında viza ala biləcəklər

Bu il Bakıda keçiriləcək “Formula 1” yarışı ilə əlaqədar Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilir. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sənədə əsasən, 2026-cı ildə Bakıda keçiriləcək “Formula 1” yarışı ilə əlaqədar Azərbaycana gələn və bu sərəncamda qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər avqustun 25-dən sentyabrın 30-dək Azərbaycanın beynəlxalq hava limanlarında viza ala bilərlər. Bu barədə müvafiq olaraq Azərbaycana uçuşlar həyata keçirən aviasiya şirkətlərinə viza prosedurlarının sadələşdirilməsi barədə məlumat verilməsi nəzərdə tutulur.

# “Sabah”ın möhtəşəm zəfərinə ali diqqət

## Prezident İlham Əliyev futbol klubunu təbrik edib

Prezident İlham Əliyev “Sabah” futbol klubunu UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması münasibətilə təbrik edib. Dövlət başçısı təbrikində “Sabah”ın möhtəşəm zəfər qazanaraq turnirin əsas mərhələsinə yüksəlməsini böyük nailiyyət kimi qiymətləndirib. Prezident İlham Əliyev yeni yaradılmış bir komandanın qısa müddət ərzində belə böyük uğura imza atmasının xüsusi sevinc və qürur doğurduğunu bildirib. Qeyd olunub ki, klublarımızın ardıcıl ikinci dəfə dünyanın ən güclü klub turnirinin əsas mərhələsində mübarizə aparmaq hüququ qazanması Azərbaycanın bütün sahələrdə əldə etdiyi tərəqqinin və ölkəmizin idman dövləti kimi mövqeyinin daha bir bariz göstəricisidir.

# Ukrayna və Qazaxıstana təbrik məktubları

## Dövlət başçısı hər iki ölkənin liderini əlamətdar günlər münasibətilə təbrik edib

Prezident İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenskini Ukraynanın müstəqilliyinin 35-ci ildönümü, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi isə ölkənin yeni parlamenti – Qurultaya keçirilən ilk seçkilərin uğurla baş tutması münasibətilə təbrik edib. Dövlət başçısı Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlığın, siyasi dialoqun, iqtisadi və humanitar əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edib. Kasım-Jomart Tokayevə ünvanlanan məktubda isə Azərbaycan-Qazaxıstan əlaqələrinin, strateji tərəfdaşlığın və qarşılıqlı siyasi dialoqun əhəmiyyəti vurğulanıb. Prezident İlham Əliyev hər iki ölkənin liderlərinə möhkəm cansağlığı, uğurlar, xalqlarına isə sülh, əmin-amanlıq və rifah arzulayıb.


Cinayətə qarşı ən təsirli addım: məlumatlı cəmiyyət 3



Su hövzələrində qanun pozuntuları aşkarlanıb 3



Mobil təhlükəsizlik 4



DİN müsabiqə elan edir 4



# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Sumqayıtda qəbul və sıra baxışı olacaq




Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 1-də Sumqayıt şəhərində növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

Qəbula yazılmaq istəyən şəhər sakinləri Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 31.08.2026-cı il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə Nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı sentyabrın 1-də saat 08:00-da DİN Daxili Qoşunların Sumqayıt şəhərində yerləşən hərbi hissəsində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Respublika Xəbərləri

### Bakıda triatlon yarışı keçiriləcək

Sentyabrın 5-də Bakıda ilk dəfə triatlon idmanı üzrə beynəlxalq yarış keçiriləcək. Yarışda 62 ölkədən 1500 idmançının iştirakı nəzərdə tutulur. İştirakçılar 1,9 kilometr üzgüçülük, 90,1 kilometr velosiped və 21,1 kilometr qaçış mərhələlərində mübarizə aparacaqlar. Kişi və qadın kateqoriyalarında ilk 25 yeri tutan idmançılar 2027-ci ildə ABŞ-da keçiriləcək dünya çempionatına vəsiqə qazanacaqlar.

### Beynəlxalq Yol Federasiyasının yüksək qiyməti

Avropa və Mərkəzi Asiya Regional Mükəmməllik Mükafatlarına təqdim edilən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu layihəsi Beynəlxalq Yol Federasiyası (BYF Qlobal) tərəfindən İnnovativ İnşaat Metodologiyası kateqoriyasında qalib seçilib. Yol 1C texniki dərəcəli olmaqla, 4-6 hərəkət zolağından ibarətdir və onun tərkibində 7 tunel, 9 viaduk, 11 körpü, 76 yeraltı və ehtiyat keçid yer alır. Tunellərin ümumi uzunluğu 6,3 kilometrdən çox, ən uzun tunelin uzunluğu isə 3,34 kilometrdir.

### Yeni “rəqəmsal səyyah” viza altnövü təsis ediləcək

Azərbaycanda yeni “rəqəmsal səyyah” viza altnövünün təsis edilməsi nəzərdə tutulur. Bundan başqa, vizasız gediş-gəliş rejiminin tətbiq olunduğu ölkələrin sayının artırılması, çoxdəfəlik elektron vizaların verilməsi prosesinin təkmilləşdirilməsi və elektron viza rejimi tətbiq edilən ölkələrin sayının artırılması planlaşdırılır.

### Zəngəzur xəttində işlər tamamlanır

Naxçıvanın Azərbaycanın əsas elektrik enerjisi sistemi ilə birləşdirilməsi və Azərbaycan-Naxçıvan-Türkiyə-Avropa enerji dəhlizinin formalaşdırılması məqsədilə Zəngəzur xəttinin tikintisinin ilk mərhələsi yekunlaşır. Cəbrayıl-Ağbənd istiqamətində 74 kilometrlik, 330 kilovoltluq yüksək gərginlikli ötürmə xəttində işlərin 97 faizi tamamlanıb. Növbəti mərhələdə Ordubad-Naxçıvan, Zəngəzur dəhlizi və Naxçıvan-Türkiyə istiqamətlərində işlərin həyata keçirilməsi nəzərdə tutulur.

### TDT Təhlükəsizlik Şuraları Bakıda toplanır

Türk Dövlətləri Təşkilatının (TDT) Təhlükəsizlik Şuraları Katiblərinin 5-ci görüşünün sentyabrın 16–18-də Bakıda keçirilməsi planlaşdırılır. Görüşdə türk dövlətləri arasında təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı, regional təhlükəsizlik məsələləri müzakirə olunacaq.

# Rəqəmsal asayiş

## İnformasiya təhlükəsizliyi ictimai sabitliyi möhkəmləndirir

*(Əvvəli 1-ci səhifədə)*

Saxta xəbərlər, məqsədli dezinformasiya, zorakılığa çağırışlar, ekstremist təbliğat, nifrət nitqi və müxtəlif manipulyasiya üsulları virtual sərhədləri aşaraq real ictimai proseslərə təsir göstərir.

Belə şəraitdə təhlükəli çağırışların vaxtında müəyyən edilməsi olduqca əhəmiyyətlidir. Söhbət insanların şəxsi düşüncələrinin izlənilməsindən və ya qanuni ifadə azadlığının məhdudlaşdırılmasından getmir. Hüquqi müdaxilə ictimai təhlükəsizliyə real təhdid yaradan, zorakılığı, terrorçuluğu, ekstremizmi və digər hüquqazidd əməlləri təşviq edən hallara münasibətdə qanunvericiliyin müəyyən etdiyi çərçivədə həyata keçirilməlidir. Hüquqi dövlətin mahiyyəti bunu tələb edir.

Azərbaycan son illərdə informasiya və kibertəhlükəsizlik sahəsində hüquqi və institusional imkanlarını genişləndirir. Rəqəmsal transformasiyanın sürətlənməsi, dövlət informasiya sistemlərinin qorunması, kibertəhlükəsizlik imkanlarının artırılması və rəqəmsal savadlılığın yüksəldilməsi bu siyasətdə mühüm yer tutur. Dövlət xidmətləri və ictimai münasibətlər rəqəmsal müstəviyə keçdikcə həmin mühitin təhlükəsizliyinə olan tələb də artır. Müasir informasiya mühiti polis fəaliyyətinə də yeni tələblər gətirib. İctimai asayiş artıq fiziki məkanla məhdudlaşmır. Cinayət xarakterli fəaliyyət sosial şəbəkələrdə, müxtəlif internet platformalarında, saxta profillər və rəqəmsal kommunikasiya vasitələri üzərindən də həyata keçirilə bilir.

Bu səbəbdən Daxili İşlər Nazirliyinin fəaliyyətində kibercinayətkarlıqla mübarizə, internetdə hüquqazidd əməllərin aşkarlanması, elektron sübutların müəyyənləşdirilməsi və rəqəmsal təhlükələr barədə vətəndaşların məlumatlandırılması xüsusi yer tutur. Cinayət üsulları dəyişdikcə polis əməkdaşının peşə hazırlığı da zamanın tələblərinə uyğun inkişaf edir. Hüquqi biliklərlə yanaşı rəqəmsal sübutların xüsusiyyətlərini, informasiya texnologiyalarını və müasir kibertəhdidləri bilmək artıq praktik zərurətdir.

Azərbaycan polisinin fəaliyyətində profilaktika ənənəvi istiqamət olduğuna görə bu yanaşma rəqəmsal mühitdə də özünü göstərir. Kiberməkanda təhlükəli prosesin ilkin əlamətlərini görmək, cinayətə şərait yaradan amilləri vaxtında müəyyənləşdirmək və qanunun imkan verdiyi tədbirləri görmək bir çox hallarda sonrakı ağır nəticələrin qarşısını alır.

Dezinformasiya ilə mübarizə məsələsində də qabaqlayıcı tədbirlər ön plana çıxır. Saxta məlumatın yayılmasının qarşısını almağın təsirli yollarından biri ictimaiyyətə doğru informasiyanın vaxtında çatdırılmasıdır. Məlumat boşluğu yarandıqda şayiələr və təsdiqlənməmiş xəbərlər üçün münbit şərait yaranır. Əlbəttə, media da bu prosesdə böyük məsuliyyət daşıyır. Peşəkar jurnalistikanın məlumatı bir neçə mənbədən yoxlamaq, faktla rəyi ayırmaq, təsdiqlənməmiş informasiyaya ehtiyatla yanaşmaq prinsipləri informasiya təhlükəsizliyi baxımından olduqca qiymətlidir.

Təəssüf ki, bəzən sürət naminə dəqiqlikdən imtina edilməsi sosial şəbəkələrdə yanlış məlumatın daha geniş auditoriyaya çatmasına şərait yaradır.

Belə neqativ meyllərin önlənməsi baxımından Daxili İşlər Nazirliyinin ictimaiyyətlə operativ və açıq əlaqəsi xüsusilə diqqət çəkir. DİN-in Mətbuat Xidmətinin gündəlik olaraq baş verən hadisələr, həyata keçirilən tədbirlər, aparılan araşdırmalar və ictimai maraq doğuran digər məsələlərlə bağlı media və cəmiyyəti məlumatlandırır. Nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrində gün ərzində operativ məlumatlar paylaşılır, ictimaiyyəti maraqlandıran məsələlərə aydınlıq gətirilir, həqiqətə uyğun olmayan və çaşdırıcı məlumatlara çevik münasibət bildirilir. Bu, cəmiyyətin mötəbər mənbədən məlumat əldə etməsinə şərait yaradıb, yanlış informasiyanın yayılma imkanlarını məhdudlaşdırır.

Eləcə də jurnalistlərin sorğularının operativ cavablandırılması, baş verən hadisələrlə bağlı rəsmi mövqenin vaxtında təqdim edilməsi xəbərin ilkin mənbədən dəqiqləşdirilməsinə imkan yaradıb. Son illərdə media nümayəndələri arasında keçirilən sorğularda DİN-in Mətbuat Xidmətinin ön sıralarda yer alması da jurnalistlərlə formalaşmış səmərəli əməkdaşlığın göstəricisi kimi qiymətləndirilə bilər.

Əlbəttə, sosial medianın geniş istifadə olunduğu indiki dövrdə informasiya paylaşılmasında bütün internet istifadəçilərindən peşəkarlıq gözləməyə dəyməz. Ancaq şübhəli və təhlükəli materialla qarşılaşan istifadəçi onu araşdırmadan paylaşmaqla həmin məzmunun daha geniş yayılmasına səbəb olduğunu nəzərə alsa, hüquqazidd çağırışlarla qarşılaşdıqda onları tirajlamaq əvəzinə müvafiq platformaya və zəruri hallarda aidiyyəti dövlət orqanına məlumat versə, bu, əsl rəqəmsal məsuliyyət nümunəsi olardı.

İnformasiya bu gün strateji resursdur. Onun düzgün idarə olunması ictimai sabitliyə, dövlət institutlarına etimada və təhlükəsizliyə birbaşa təsir göstərir. Təhlükəni vaxtında görən, qanunun sərhədlərini qoruyan və cəmiyyətlə açıq ünsiyyət quran dövlət rəqəmsal dövrün çağırışlarına daha hazırlıqlı olur. Azərbaycan üçün də əsas hədəf ölkə reallıqlarına uyğun təhlükəsiz, etibarlı rəqəmsal asayiş mühiti yaratmaqdır.

***R.Mehtiyev***

# Xəbərdarlıq etmədən gələn təhlükə

## Yol hərəkəti qaydalarının pozulması ağır nəticələrə səbəb olur

*(Əvvəli 1-ci səhifədə)*

Yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olan əsas amillər sırasında sürət həddinin aşılması, yol və hava şəraitinin nəzərə alınmaması, ötmə və manevr qaydalarının pozulması, sürücülərin diqqətinin yayındırılması və digər yol hərəkəti qaydalarının tələblərinə riayət edilməməsi xüsusi yer tutur.



Xüsusilə sutkanın qaranlıq vaxtlarında sürücülərin daha diqqətli olması vacibdir. Belə hallarda hərəkət sürətinin yol şəraitinə uyğun seçilməməsi, görünüş məsafəsinin düzgün qiymətləndirilməməsi və piyadaların vaxtında görülməməsi qəza riskini artırır.

Yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında piyadaların davranışı da mühüm əhəmiyyət daşıyır. Piyada keçidi olmayan yerlərdə yolun hərəkət hissəsinə keçilməsi, svetoforun qadağanedici siqnallarına əməl olunmaması və nəqliyyat vasitələrinin hərəkətinə manеə yaradan digər hərəkətlər piyadaların iştirakı ilə baş verən qəzaların əsas səbəbləri sırasındadır. Qaydaların uşaqlar, yaşlı insanlar və digər həssas hərəkət iştirakçıları tərəfindən pozulması isə daha ciddi risklər yaradır. Bu səbəbdən onların hərəkət etdiyi ərazilərdə sürücülərin sürət rejiminə və yol nişanlarının tələblərinə ciddi əməl etməsi, piyada keçidlərinə yaxınlaşarkən isə hərəkət şəraitini düzgün qiymətləndirməsi vacibdir. Aşkar edilən təhlükəli sahələr, yol hərəkətinin təşkilində yaranan problemlər və qəza riskini artıran digər amillərlə bağlı aidiyyəti qurumlar qarşısında müvafiq məsələlər qaldırılır və onların aradan qaldırılması istiqamətində tədbirlər görülür.

Polis əməkdaşları tərəfindən yol hərəkəti qaydalarının pozulmasının qarşısının alınması, qəza risklərinin azaldılması və hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə nəzarət tədbirləri həyata keçirilir. Sürət həddinin aşılması, sərxoş vəziyyətdə nəqliyyat vasitəsinin idarə edilməsi, təhlükəli manevrlər və qəza şəraiti yaradan digər qayda pozuntularının qarşısının alınması diqqətdə saxlanılır.

Bununla yanaşı, yol hərəkəti təhlükəsizliyinin təmin olunması məqsədilə profilaktik tədbirlər davam etdirilir, aşkar edilən qayda pozuntuları ilə bağlı qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülür. Məqsəd yol-nəqliyyat hadisələrinin və onların ağır nəticələrinin qarşısını almaq, hər bir hərəkət iştirakçısının təhlükəsizliyini təmin etməkdir.

# Sabitliyin keşiyində

## Təhlükəsizlik gündəlik, fasiləsiz və ardıcıl xidmətdən başlayır

Azərbaycan bu gün sabitliyi, əmin-amanlığı və təhlükəsizliyi ilə seçilən ölkələrin cərgəsində öncül yerlərdədir. Şəhər və rayonlarımızda gündəlik həyatın sakit və təhlükəsiz axarı, insanların rahatlığı dövlətin təhlükəsizlik siyasətinin və bu siyasətin həyata keçirilməsində mühüm rol oynayan polis əməkdaşlarının fədakar xidmətinin nəticəsidir. Ölkəmizdə sabitliyin və ictimai asayişin etibarlı qorunması məqsədilə polis əməkdaşları cinayətlərin açılması, axtarışda olan şəxslərin saxlanılması, narkotik vasitələrin və qanunsuz silah-sursatın dövriyyədən çıxarılması istiqamətində fasiləsiz tədbirlər həyata keçirirlər. Statistik rəqəmlər bəzən sadəcə məlumat kimi görünür. Lakin hər bir rəqəmin arxasında konkret hadisə, müraciət, araşdırma, əməliyyat və nəticə dayanır. Son bir həftə ərzində Daxili İşlər Nazirliyinin ictimaiyyətə açıqladığı məlumatlar da polisin xidmətinin müxtəlif istiqamətlərdə gündəlik və ardıcıl fəaliyyətini göstərir. Bu göstəricilər cinayətlərin yalnız qeydiyyata alınması deyil, həm də əvvəl baş vermiş hadisələrin araşdırılaraq nəticələndirilməsi istiqamətində işin davam etdiyini göstərir.

Açıqlanan məlumatlarda diqqətçəkən göstəricilərdən biri axtarışda olan şəxslərin saxlanılması ilə bağlıdır. Bu isə onu göstərir ki, polis əməkdaşlarının fəaliyyəti yalnız yeni baş vermiş cinayətlərin araşdırılması ilə məhdudlaşmır. Müxtəlif səbəblərdən axtarışda olan şəxslərin müəyyən edilərək saxlanılması da gündəlik xidmətin mühüm istiqamətlərindən biridir.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı əldə olunan nəticələr də “ağ ölüm”ə qarşı mübarizədə polisin ardıcıl və məqsədyönlü fəaliyyətinin göstəricisidir. Narkotiklərlə bağlı aşkar edilmiş hər bir fakt potensial təhlükənin qarşısının vaxtında alınması deməkdir.

Qanunsuz silahların dövriyyədən çıxarılması ictimai təhlükəsizliyin təmin edilməsinin vacib istiqamətlərindəndir. Bu məqsədlə son günlər polisin həyata keçirdiyi tədbirlər qanunsuz silah-sursatın aşkarlanaraq dövriyyədən çıxarılması istiqamətində işlərin ardıcıl davam etdirildiyini göstərir.

Bir neçə günün statistik məlumatları belə polis fəaliyyətinin yalnız bir istiqamətlə məhdudlaşmadığını, ictimai təhlükəsizliyin müxtəlif sahələrini əhatə edən çoxşaxəli xidmət olduğunu aydın şəkildə ortaya qoyur. Açıqlanan hər bir göstəricinin arxasında polis əməkdaşlarının gördüyü iş, keçirilən tədbirlər, aparılan araşdırmalar və ən əsası, ictimai təhlükəsizliyin təmin olunmasına yönəlmiş fasiləsiz xidmət dayanır.

# Cinayətə qarşı ən təsirli addım: məlumatlı cəmiyyət

### Maarifləndirmə təhlükəsizliyin əsas şərtidir






Cinayətkarlıqla mübarizə yalnız törədilmiş cinayətlərin açılması və cinayətkarların məsuliyyətə cəlb olunması ilə məhdudlaşmır. Bu mübarizənin daha mühüm istiqamətlərindən biri də hüquq pozuntularının baş verməzdən əvvəl qarşısının alınmasıdır. İnsan qanunu, hüquq və vəzifələrini, eləcə də qarşılaşa biləcəyi riskləri nə qədər yaxşı bilirsə, hüquq pozuntusundan qorunmaq və düzgün qərar vermək imkanları da bir o qədər artır.

Daxili İşlər Nazirliyinin fəaliyyəti də bu yanaşmanın praktik nümunələri ilə zəngindir. Polis əməkdaşları yalnız cinayət hadisələrinə reaksiya vermir, eyni zamanda müxtəlif əhali qrupları ilə profilaktik və maarifləndirici iş aparırlar. Xüsusilə yeniyetmə və gənclərlə keçirilən görüşlər, təhsil müəssisələrində təşkil olunan tədbirlər, zərərli vərdişlər, kibertəhlükəsizlik, hüquqi məsuliyyət və digər məsələlərlə bağlı söhbətlər cinayətlərin qarşısının alınmasına yönəlmiş mühüm addımlardandır.

Cinayətin qarşısının alınması üçün yalnız hüquqi tədbirlərin görülməsi kifayət etmir. İnsanların təhlükəni əvvəlcədən tanıması, qanunsuz əməlin nəticələrini bilməsi və riskli vəziyyətlərdə düzgün davranış nümayiş etdirməsi də vacibdir. Bu baxımdan insanların müxtəlif risklər barədə məlumatlandırılması və düzgün davranış vərdişlərinin formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Məktəblərdə keçirilən görüşlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Burada şagirdlərə hüquq və vəzifələri izah olunur, onlar narkotik vasitələrdən və digər zərərli vərdişlərdən uzaq durmağa, internet və sosial şəbəkələrdən təhlükəsiz istifadə etməyə, şübhəli hallarda diqqətli olmağa çağırılır. Eyni zamanda erkən nikah, zorakılıq, kiberbullinq və digər risklər barədə məlumatlandırma aparılması yeniyetmələrin qarşılaşa biləcəyi təhlükələri vaxtında dərk etməsinə imkan verir.

Qeyd edək ki, maarifləndirmə işi yalnız məktəblərlə məhdudlaşmır. Müxtəlif rayonlarda gənclər, tələbələr, pedaqoqlar, valideynlər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən görüşlərdə ictimai təhlükəsizlik, zərərli vərdişlərdən qorunma və digər aktual məsələlər müzakirə olunur. Belə tədbirlərin müxtəlif sahələrdən olan insanların iştirakı ilə keçirilməsi problemin yalnız polis tərəfindən deyil, cəmiyyətin müxtəlif təbəqələrinin iştirakı ilə də müzakirə olunmasına imkan yaradır.

Cinayətkarlığın qarşısının alınması yalnız hüquq-mühafizə orqanlarının səyləri ilə tam şəkildə təmin edilə bilməz. Bu prosesdə ailənin, məktəbin, ictimaiyyətin və hər bir vətəndaşın özünəməxsus rolu var. Uşağın davranışındakı dəyişiklikləri vaxtında müşahidə edən valideyn, şagirdin üzləşdiyi problemi görən müəllim və ətrafında baş verənlərə biganə qalmayan vətəndaş əslində profilaktik işin bir hissəsinə çevrilir.

Polis-vətəndaş həmrəyliyinin əhəmiyyəti də məhz burada özünü göstərir. Polis əməkdaşları maarifləndirmə aparmaqla insanlara təhlükələr barədə məlumat verir, cəmiyyət isə bu məlumatları gündəlik davranışında tətbiq etməklə və şübhəli hallara biganə qalmamaqla təhlükəsizliyin təmin olunmasına dəstək verir.

Profilaktik tədbirlərin əsas üstünlüyü onların problemi nəticə mərhələsində deyil, səbəb mərhələsində qarşılamağa imkan verməsidir. Bir yeniyetmənin narkotik vasitələrin təhlükələri barədə vaxtında məlumatlandırılması, kibertəhlükəsizlik qaydalarını bilməsi və ya hüquqazidd davranışın nəticələrini əvvəlcədən dərk etməsi onun gələcəkdə yanlış addım atmasının qarşısını ala bilər.

Bu baxımdan maarifləndirmə sadəcə məlumat vermək deyil, insanlarda məsuliyyətli davranış formalaşdırma vasitəsidir. Bu işin səmərəsi isə keçirilən tədbirlərin sayı ilə deyil, onların cəmiyyətdə yaratdığı nəticə ilə ölçülür. Polis cinayətin qarşısını almaq üçün yalnız hadisədən sonra deyil, hadisədən əvvəl də fəaliyyət göstərir. Təhlükəsiz cəmiyyətin formalaşması isə polis, ailə, məktəb və bütövlükdə ictimaiyyətin birgə səylərindən asılıdır. Hər kəs öz üzərinə düşən məsuliyyəti dərk etdikdə və hüquq pozuntularının qarşısının alınmasına öz töhfəsini verdikdə cinayətkarlıq üçün əlverişli mühit daralır. Bu mənada maarifləndirmə sadəcə məlumatlandırma vasitəsi deyil, cinayətkarlığın qarşısının alınmasında mühüm profilaktik addımdır.

# Bir məqsədə aparan iki mərhələ

### Qaradağ rayonunda gənc zabit və kursantlarla görüş keçirilib

***Polis peşəsi yalnız forma geyinmək və xidmətə başlamaqdan ibarət deyil. Bu peşə daim inkişaf etməyi, yeni biliklər qazanmağı, qərarların məsuliyyətini dərk etməyi və öyrənilənləri real xidmət şəraitində düzgün tətbiq etməyi tələb edir.***

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qədəm qoyan hər bir gəncin qarşısında təhsili uğurla başa vurmaqla yanaşı, gələcəkdə xidmət zamanı məsuliyyətli olmaq, vətəndaş məmnunluğunu təmin etmək və peşə fəaliyyətində yüksək insani keyfiyyətlər nümayiş etdirmək kimi mühüm vəzifələr dayanır.

Qaradağ Rayon Polis İdarəsində Polis Akademiyasının əyani fakültəsini bitirərək idarənin müxtəlif struktur bölmələrində müvafiq vəzifələrə təyin olunmuş gənc əməkdaşlarla keçirilən görüşün də məqsədi məhz onların ilk xidmət təcrübələri ilə bağlı fikir və təəssüratlarını öyrənmək, qarşılaşdıqları çətinlikləri müzakirə etmək, peşəkar fəaliyyətlərinin düzgün istiqamətdə qurulmasına dəstək olmaq, eləcə də gələcək xidmətləri ilə bağlı tövsiyələr vermək olub. İdarənin rəhbər vəzifəli əməkdaşlarının iştirakı ilə keçirilən görüşdə gənc polislərin qarşıdakı xidmət fəaliyyəti, onların üzərinə düşən vəzifələr və peşəkar inkişafı ilə bağlı məsələlər müzakirə olunub. Gənc əməkdaşlar yeni vəzifələrə təyin olunmaları münasibətilə təbrik edilib, onlara göstərilən etimadı gələcək xidmətlərində doğrultmaları, öz vəzifələrinə yüksək məsuliyyətlə yanaşmaları və xidməti şərəflə yerinə yetirmələri tövsiyə olunub.

Gənc əməkdaşların təcrübəli həmkarlarından öyrənməsi, əldə etdikləri nəzəri bilikləri praktiki bacarıqlarla möhkəmləndirməsi və xidmət təcrübəsini daha dərindən mənimsəməsi görüşdə əsas məsələlərdən biri kimi diqqətə çatdırılıb. Görüşdə, həmçinin Polis Akademiyasına Qaradağ rayonu üzrə yeni qəbul olunan kursantlar və onların valideynləri də iştirak ediblər. Polis olmaq arzusunu gerçəkləşdirmək yolunda ilk addımları atan gənclər təbrik edilib, onlara qarşıdakı təhsil illərində uğurlar arzulanıb.

Valideynlərə isə övladlarının seçdiyi şərəfli və məsuliyyətli peşədə onlara daim dəstək olmalarının vacibliyi diqqətə çatdırılıb.

Gənc əməkdaşlar və kursantlar… Onlar polis peşəsinə aparan yolun fərqli mərhələlərində olsalar da, eyni məqsədə doğru irəliləyirlər. Gənc əməkdaşlar Akademiyada qazandıqları bilikləri artıq xidmət zamanı tətbiq edir, kursantlar isə peşəkar polis kimi formalaşmağın ilk addımlarını atırlar. Qarşıda onları fərqli mərhələlər gözləsə də, hər iki tərəfi birləşdirən əsas hədəf gələcəkdə vəzifəsini layiqincə yerinə yetirən, peşəkarlığı və məsuliyyəti ilə seçilən polis əməkdaşı olmaqdır.

# Qanunsuz onlayn qumar şəbəkəsinə qarşı daha bir əməliyyat

### Mütəşəkkil dəstənin rəhbəri Gürcüstanda saxlanılaraq ölkəyə gətirildi

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən internet informasiya resurslarından istifadə etməklə xaricdən idarə edilən onlayn qumar oyunlarının təşkili və əlaqəli qanunsuz əməllər törədən mütəşəkkil dəstənin üzvlərinin saxlanılması istiqamətində həyata keçirilən əməliyyat tədbirləri yekunlaşıb. Gürcüstan Respublikasında yerli hüquq-mühafizə orqanları ilə birgə keçirilən tədbirlərlə "chc.play" platformasına bağlı "Martin" kazino və digər adlar altında qanunsuz qumar oyunlarının təşkilində təqsirli bilinərək axtarışda olan cinayətkar qruplaşmanın rəhbəri A.Əliyev saxlanılaraq ölkəyə gətirilib. Araşdırmalarla müəyyən edilib ki, A.Əliyev mütəşəkkil dəstə yaradaraq xarici ölkələrdə təşkil etdiyi qanunsuz mərc və kazino oyunlarına Azərbaycan vətəndaşlarından ibarət şəxsləri cəlb edib. O, həmin şəxsləri Tbilisi və digər şəhərlərdə icarəyə götürdüyü evlərə yerləşdirərək onlayn kazino və qumar oyunları təşkil edib. Əməliyyatlar çərçivəsində A.Əliyevin yaratdığı dəstənin digər üzvləri də saxlanılaraq istintaqa cəlb olunub. Saxlanılan zaman dəstə üzvlərindən çoxsaylı elektron daşıyıcılar, bank kartları və digər əşyalar aşkarlanaraq maddi sübut kimi götürülüb.

# Narkotik dövriyyəsinə növbəti zərbə

### BNMİ-nin əməliyyatı nəticəsində narkotacirlər saxlanılıblar

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı növbəti əməliyyat keçirilib.

Paytaxtın Binəqədi və Nizami, həmçinin Abşeron və Yevlax rayonlarında keçirilən tədbirlərlə əvvəllər müxtəlif cinayət əməllərinə görə məhkum olunmuş N.Həsənov, M.Azayev, H.Vəliyev, E.Səlimov, E.Abdullayev və Ş.Abdullayev saxlanılıblar. Onlardan ümumilikdə 116 kiloqram narkotik vasitə və 9500 ədəd narkotik tərkibli həb aşkarlanıb. Araşdırmalarla saxlanılan şəxslərin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil etdikləri müəyyənləşdirilib.

Göyçay Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə narkotik tərkibli bitkiləri kultivasiya etməkdə şübhəli bilinən B.Əhmədov saxlanılıb. Onun yaşadığı ünvandan ümumilikdə 51 ədəd narkotik tərkibli bitki və 2 ədəd odlu silah aşkarlanıb. Saxlanılan şəxs narkotik tərkibli bitkilərə aqrotexniki qaydada xüsusi qulluq göstərərək yetişdirdiyini bildirib.

Faktlarla bağlı cinayət işləri başlanılıb. Saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.



# Su hövzələrində qanun pozuntuları aşkarlanıb

### Qaydaları pozanlar məsuliyyətə cəlb olunublar



Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsinə daxil olmuş müraciətlər əsasında su hövzələrində qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarət məqsədilə tədbirlər davam etdirilir. Araşdırmalarla müəyyən edilib ki, Xəzər rayonu Buzovna qəsəbəsi, Suraxanı rayonu Bülbülə qəsəbəsi, Abşeron rayonu Məmmədli kəndi ərazisində yerləşən su hövzələrində, həmçinin Goranboy rayonunun Yuxarı Ağcakənd qəsəbəsi ərazisində Qaraçay çayının sahilində və Balakən rayonunda Dəliçay çayı ərazisində su qanunvericiliyinin tələblərinin pozulması halları aşkarlanıb.

Belə ki, qeyd edilən su hövzələrinin tikinti-söküntü tullantıları, məişət tullantıları, bərk və qarışıq süxurlarla qanunsuz doldurulması, həmin su hövzələrinin akvatoriyasına torpaq və digər materialların gətirilərək tökülməsi, habelə sahilboyu mühafizə zolağında torpaq-qazıntı işlərinin aparılması halları müəyyən edilib. Eyni zamanda, su hövzələrində icazəsiz qazıntı işlərinin aparılması nəticəsində yerin relyefinin dəyişdirilməsinə və hidroloji rejimin pozulmasına səbəb olan hallar aşkarlanıb.

Qeyd edilən faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işləri başlanılıb. Hazırda faktların hüquqi qiymətləndirilməsi məqsədilə zəruri istintaq tədbirləri davam etdirilir.

# Oğurluq əməli ifşa olundu

### Şübhəli şəxs polis tərəfindən saxlanılıb

Bakı şəhəri Abşeron rayonunda müxtəlif vaxtlarda 6 avtomobildən pul vəsaitləri, mobil telefonlar, səsgücləndiricilər və digər qiymətli əşyalar oğurlanıb. Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə talama cinayətini törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 32 yaşlı C.Mikayılov müəyyən edilərək saxlanılıb. Araşdırmalarla onun rayon ərazisində yerləşən iki marketdən oğurluq etdiyi də məlum olub.

Qeyd edilən faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Mobil təhlükəsizlik

## Smartfonlarda toplanan məlumatların qorunması niyə vacibdir?

**Smartfonlar həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bu gün telefon yalnız zəng etmək və mesajlaşmaq üçün istifadə olunan vasitə deyil. Fotoşəkillərimiz, videolarımız, yazışmalarımız, kontaktlarımız, bank hesablarımız, sosial şəbəkələrdəki məlumatlarımız və hətta gündəlik hərəkətlərimiz barədə informasiyalar müxtəlif cihaz və onlayn platformalarda toplanır. Bir sözlə, insanın şəxsi həyatı haqqında kifayət qədər məlumatı bir telefonun yaddaşında və onunla əlaqəli rəqəmsal xidmətlərdə tapmaq mümkündür.**



Texnologiyanın yaratdığı bu rahatlıq, eyni zamanda, şəxsi məlumatların qorunması məsələsini də aktuallaşdırır. Çünki məlumatın dəyəri yalnız onun sahibinə deyil, qanunsuz yollarla əldə etmək istəyən şəxslərə də məlumdur.

### *Tətbiqlərə verilən icazələrin əhəmiyyəti*

Bir çox istifadəçi telefonuna yeni tətbiq yükləyərkən qarşısına çıxan icazə bildirişlərinə lazımi diqqət yetirmir. "İcazə ver" düyməsinə düşünmədən toxunmaq isə tətbiqin müəyyən məlumatlara çıxış əldə etməsinə şərait yarada bilər. Əslində, hər tətbiqin bütün məlumatlara girişə ehtiyacı yoxdur. Proqram kamera, mikrofon, kontaktlar, fotoşəkillər və ya yerləşmə məlumatlarına giriş tələb etdikdə istifadəçi bunun səbəbini nəzərdən keçirməlidir. Sadə funksiyaya malik tətbiqin həmin funksiyaya aidiyyəti olmayan məlumatlara giriş istəməsi isə xüsusilə diqqətlə qiymətləndirilməlidir. Bu baxımdan tətbiqlərin tələb etdiyi icazələri vaxtaşırı yoxlamaq şəxsi məlumatların qorunmasının ən sadə və effektiv yollarından biridir. Əsas məsələ bütün tətbiqlərə şübhə ilə yanaşmaq deyil, hansı məlumatlara və nə üçün giriş verildiyini bilməkdir.

Telefonla çəkilən hər bir fotoşəkil yalnız görüntüdən ibarət olmaya bilər. Şəklin çəkildiyi vaxt, bəzi hallarda isə məkanla bağlı texniki məlumatlar da faylda saxlanıla bilər. Bununla yanaşı, fotoda görünən küçə adı, ev nömrəsi, məktəb, iş yeri və digər detallar insanın harada olduğunu müəyyənləşdirməyə imkan verə bilər. Bu səbəbdən sosial şəbəkələrdə foto və video paylaşarkən diqqətli olmaq vacibdir. Xüsusilə uşaqları, yaşayış ünvanını, gündəlik marşrutları və şəxsi həyatla bağlı digər detalları göstərən görüntülərin ictimai şəkildə paylaşılması əlavə risklər yarada bilər.

### *Pulsuz xidmətlərin arxasındakı məlumat mübadiləsi*

İnternetdə çoxsaylı xidmətlər istifadəçilərə ödənişsiz təqdim olunur. Lakin "pulsuz" xidmət heç bir məlumatın tələb olunmadığı anlamına gəlmir. Sayt və tətbiqlərdə qeydiyyatdan keçərkən ad, elektron poçt ünvanı, telefon nömrəsi, maraq dairəsi və istifadə vərdişləri kimi müxtəlif məlumatlar toplana bilər. Bu məlumatların hansı məqsədlə istifadə edildiyi isə həmin xidmətin məxfilik siyasətində göstərilir. Ona görə də istifadəçi hər platformada özünə aid bütün məlumatları paylaşmaq əvəzinə, konkret xidmət üçün hansı informasiyanın zəruri olduğunu əvvəlcədən düşünməlidir. Şəxsi məlumatların qorunmasında ehtiyatlı davranış məhz belə sadə addımlardan başlayır. Şəxsi məlumatların təhlükəsizliyi məsələsi yalnız informasiyanın yayılması ilə məhdudlaşmır. Telefon nömrəsi, elektron poçt ünvanı, sosial şəbəkə hesabları və digər məlumatlardan dələduzluq məqsədilə istifadə edilə bilər. Belə hallarda vətəndaşlara bank, dövlət qurumu, mobil operator və ya tanınmış şirkətlərin adından saxta mesajlar göndərilir. Mesajda hesabın bloklandığı, ödənişin təsdiqlənməli olduğu və ya müəyyən problemin yarandığı bildirilir. Ardınca isə istifadəçidən linkə daxil olaraq şəxsi və ya maliyyə məlumatlarını təqdim etmək tələb olunur. Bu cür mesajların əsas məqsədlərindən biri insanı tələsdirmək və düşünmədən qərar verməsinə nail olmaqdır. Buna görə də tanımadığımız mənbələrdən daxil olan şübhəli keçidlərə daxil olmamaq, şəxsi və bank məlumatlarını kənar şəxslərlə paylaşmamaq, göndərilən məlumatı rəsmi mənbədən yoxlamaq vacibdir.

### *Hesabların təhlükəsizliyi güclü şifrələrdən başlayır*

Şəxsi məlumatların qorunmasında hesabların təhlükəsizliyi də mühüm əhəmiyyət daşıyır. Eyni şifrədən müxtəlif platformalarda istifadə edilməsi hesabların təhlükəsizliyini zəiflədən amillərdən biridir. Hesablardan birinin məlumatları ələ keçirildikdə həmin şifrədən digər xidmətlərdə də istifadə olunması əlavə risk yarada bilər. Mümkün olduğu hallarda iki mərhələli doğrulama funksiyasından istifadə etmək hesabların qorunmasını daha da gücləndirir. Bu zaman yalnız şifrəni bilmək hesabı ələ keçirmək üçün kifayət etmir, əlavə təsdiqləmə tələb olunur. Telefonun itirilməsi və ya oğurlanması zamanı isə ekran kilidinin aktiv olması şəxsi məlumatların kənar şəxslərin əlinə keçməsinin qarşısını almağa kömək edə bilər.

### *Rəqəmsal təhlükəsizlik gündəlik vərdişdən başlayır*

Texnologiyanın inkişafı şəxsi məlumatların həyatımızdakı rolunu daha da artırır. Bu gün telefonumuzda saxladığımız bir fotoşəkildən istifadə etdiyimiz tətbiqlərə qədər çoxsaylı rəqəmsal izlər mövcuddur. Həmin məlumatların təhlükəsizliyi isə yalnız mürəkkəb texnologiyalardan asılı deyil. Bəzən sadə ehtiyat tədbiri böyük problemin qarşısını ala bilər. Şübhəli linklərə daxil olmamaq, tanımadığımız şəxslərə təsdiq kodları göndərməmək, tətbiqlərin icazələrini yoxlamaq, güclü və fərqli parollardan istifadə etmək, iki mərhələli doğrulamanı aktivləşdirmək rəqəmsal təhlükəsizliyin əsas şərtləridir. Telefon cibimizdə ola bilər. Lakin onun içindəki məlumatlar təkcə bizim üçün dəyərli deyil. Bu səbəbdən rəqəmsal dünyada şəxsi məlumatlara da evimizin açarı kimi yanaşmalıyıq. Çünki məlumat yayıldıqdan sonra onu geri qaytarmaq bir çox hallarda mümkün olmur.

*A.Tahirova*

# DİN müsabiqə elan edir

## Xidmətə qəbul üçün namizədlər iştirak edə bilərlər




Daxili İşlər Nazirliyi Bakı şəhərində yerləşən müvafiq qurumlarında vakant olan inspektor-tərcüməçi vəzifələrinə müsabiqə elan edir.

Müsabiqədə dövlət ali təhsil müəssisələrini bitirən, yaşı 20-dən 30-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (qadınlar istisna olmaqla), xarici dil biliklərinə, yazılı və şifahi tərcümə, hüquqi sənədlərlə, terminologiya və lüğətlərlə işləmək bacarıqlarına malik, Bakı şəhərində qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Namizədlərin sağlamlıq vəziyyəti və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq.

Müsabiqədə tərcüməçi kimi iş təcrübəsi olan namizədlərə üstünlük veriləcək.

Namizədlər 2026-cı ilin avqust ayının 20-dən oktyabr ayının 20-dək Daxili İşlər Nazirliyinin rəsmi internet saytında — www.mia.gov.az ünvanında yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını bki@mia.gov.az elektron poçt ünvanına göndərməlidirlər.

Ətraflı məlumat DİN-in rəsmi internet saytında yerləşdirilib: https://mia.gov.az/az/vacancies/20/azerbaycan-respublikasi-daxili-isler-nazirliyi-orta-reis-heyeti-vezifelerine-xidmete-qebulla-elaqedar-musabiqe-elan-edir/

Əlavə məlumat üçün əlaqə telefonları:
(012) 590-80-66; (012) 590-98-37;
(012) 590-93-64; (012) 590-97-52;
(012) 590-94-12; (012) 590-83-69; (012) 590-80-63.

# Təhlükədən bir neçə saniyə əvvəl

## İctimai yerlərdə diqqətli olmaq təhlükəsizliyin ilk şərtlərindəndir

İnsan hər gün küçəyə çıxır, mağazaya gedir, avtobusa minir, parkda gəzir, müxtəlif tədbirlərdə iştirak edir. Bu məkanlar gündəlik həyatımızın adi hissəsidir və çox vaxt onların təhlükəsizliyi barədə düşünmürük. Lakin təhlükəli vəziyyətlər də bəzən məhz ən adi məkanlarda və gözlənilmədən yarana bilər. Belə anlarda insanın ətrafı müşahidə etməsi və baş verənlərə diqqət yetirməsi mühüm rol oynayır. Təhlükə həmişə qəfil başlamır. Bəzən ondan bir neçə saniyə əvvəl müəyyən əlamətlər görünür. Əsas məsələ həmin əlamətləri vaxtında fərq etmək və düzgün reaksiya verməkdir.

### ►*Ətrafı görmək*

İctimai yerdə telefonla həddindən artıq məşğul olmaq, qulaqcıqla yüksək səslə musiqi dinləmək və ətrafda baş verənlərə diqqət yetirməmək insanın vəziyyəti qiymətləndirmək imkanını azalda bilər. Bu, daim şübhələnmək və hər kəsi təhlükə kimi görmək demək deyil. Sadəcə ətrafda baş verənlərdən xəbərdar olmaq vacibdir. Məsələn, izdihamlı məkanda çıxışların harada yerləşdiyini bilmək, ətrafdakı vəziyyəti müşahidə etmək və qeyri-adi hallara diqqət yetirmək fövqəladə vəziyyət zamanı daha düzgün qərar verməyə kömək edə bilər. İzdihamlı məkanlar xüsusi diqqət tələb edir. Konsertlərdə, stadionlarda, ticarət mərkəzlərində, ictimai tədbirlərdə və nəqliyyat dayanacaqlarında insanların sıxlığı vəziyyəti qiymətləndirməyi və hərəkət etməyi çətinləşdirə bilər. Belə yerlərdə qəfil qaçış, insanların bir-birini itələməsi və panika təhlükəni daha da artıra bilər. Buna görə izdihamda sakitliyi qorumaq, hərəkət istiqamətini izləmək və mümkün çıxışlara diqqət yetirmək vacibdir. Fövqəladə vəziyyət yaranarsa, başqalarının hərəkətinə düşünmədən qoşulmaq əvəzinə vəziyyəti mümkün qədər düzgün qiymətləndirmək və təhlükəsiz istiqamət seçmək lazımdır.

### ►*Şübhəli əşya gördükdə*

İctimai yerlərdə sahibsiz çanta, bağlama və ya digər əşya ilə qarşılaşmaq mümkündür. Belə halda ən doğru addım əşyaya toxunmamaq və onu götürməməkdir. Əşyanın sahibi yaxınlıqda ola bilər. Lakin onun təhlükəsiz olduğunu müəyyən etməyə çalışmaq düzgün deyil. Şübhəli vəziyyət müşahidə edildikdə ərazidən uzaqlaşmaq və aidiyyəti xidmətlərə məlumat vermək daha təhlükəsiz seçimdir. Əsas qayda sadədir: şübhəli əşyanı özünüz yoxlamağa çalışmayın.

### ►*İnsan davranışına diqqət*

Bəzən ətrafdakı insanların davranışına diqqət yetirmək də vacib ola bilər. Qeyri-adi hərəkətlər, müəyyən əraziyə həddindən artıq maraq göstərilməsi və ya insanların təhlükəsizliyini riskə atan davranışlar diqqət tələb edə bilər. Lakin burada mühüm bir məqam var: insanı yalnız görünüşünə, geyiminə və ya fərdi xüsusiyyətlərinə görə təhlükəli hesab etmək düzgün deyil. Əsas olan konkret davranışa və real vəziyyətə diqqət yetirməkdir. Şübhəli hal müşahidə edilərsə, problemi özünüz həll etməyə çalışmaq əvəzinə aidiyyəti şəxslərə və ya xidmətlərə məlumat vermək daha doğru yanaşmadır. İctimai yerlərdə uşaqların təhlükəsizliyi böyüklərin diqqətindən birbaşa asılıdır. İzdihamlı məkanlarda uşağı nəzarətsiz qoymamaq, ona itmə halında necə davranmalı olduğunu və tanımadığı şəxslərlə uzaqlaşmamağın vacibliyini izah etmək lazımdır. Əsas məqsəd uşağı qorxutmaq deyil, ona təhlükəsiz davranış vərdişləri aşılamaqdır. Ətrafı müşahidə etmək, şübhəli əşyalara toxunmamaq və təhlükəli vəziyyətdə peşəkar kömək çağırmaq isə hər kəs üçün vacib təhlükəsizlik qaydalarıdır.

*Aytən Tahirova*

# Avropada narkoşəbəkəyə qarşı əməliyyat

## Tədbirlər zamanı 103 nəfər saxlanılıb, 74 narkoanbar aşkarlanıb



Sintetik tərkibli narkotik vasitələrin istehsalı və qanunsuz dövriyyəsi ilə məşğul olan transmilli cinayətkar şəbəkənin üzvlərinə qarşı Avropada genişmiqyaslı əməliyyat keçirilib. Ukrayna, Polşa və Moldovada həyata keçirilən birgə əməliyyat çərçivəsində 510-a yaxın ünvanda axtarış aparılıb. Nəticədə 36 qanunsuz narkolaboratoriya və narkotik vasitələrin saxlanıldığı 74 anbar aşkarlanaraq fəaliyyətləri dayandırılıb. Əməliyyat zamanı 103 nəfər saxlanılıb, ümumilikdə 129 nəfər cinayət işi üzrə şübhəli şəxs qismində istintaqa cəlb olunub. Araşdırmalarla şəbəkənin fəaliyyətinin bir neçə ölkənin ərazisini əhatə etdiyi, sintetik narkotiklərin qanunsuz istehsalı və yayılması ilə məşğul olduğu müəyyənləşdirilib.

Keçirilən əməliyyat nəticəsində narkotik vasitələrin istehsalı üçün yaradılmış gizli məntəqələrin və hazır məhsulların saxlanıldığı anbarların aşkar edilərək fəaliyyətinin dayandırılması transmilli cinayətkarlığa qarşı müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarının koordinasiyalı fəaliyyətinin əhəmiyyətini bir daha göstərib.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik